

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (21.365)

31 oktyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı qeyd olunmuşdur





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 92-ci ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbriki oxunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Dövlət müstəqilliyi hər bir xalqın qazandığı ən böyük tarixi nailiyyətdir. 92 il bundan əvvəl qəhrəman türk xalqı da milli istiqlal mübarizəsi apararaq dövlət müstəqilliyini elan etmişdir. Ali Məclisin Sədri müstəqillik bayramı – Cümhuriyyət elan edilməsi münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik etmiş, inkişaf və tərəqqi arzulamışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan-Türkiyə əlaqələrinin qədim tarixi vardır. Xalqlarımız ən çətin məqamlarında bir-birinə dəstək olmuş, soykök, milli və ortaq dəyərlər qardaş ölkələr arasındakı əlaqələrin əsasını təşkil etmişdir. Milli liderlərimiz – Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən ***"bir millətin iki dövləti"*** səviyyəsinə yüksəldilən əlaqələrimiz bu gün ölkələrimizin strateji tərəfdaşlığı şəraitində davam etdirilir.

Ali Məclisin Sədri möhkəm təməl, birlik və bərabərlik üzərində qurulan ikitərəfli münasibətlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür".***

Türkiyənin Naxçıvandakı Baş konsulu Nihat Ərşən çıxış edərək demişdir ki, Türkiyə Cümhuriyyəti ötən 92 ildə şərəfli inkişaf yolu keçmişdir. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə aparılan milli istiqlal mübarizəsinin nəticəsində yaranan Türkiyə Respublikası bu gün regionda və dünyada nüfuzlu söz sahibinə çevrilmişdir. Dünyanın 20 böyük ölkəsinin sırasına daxil olan Türkiyə xarici, o cümlədən region ölkələri ilə qarşılıqlı əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Bu gün dost və qardaş Azərbaycanla da ikitərəfli əlaqələr uğurla inkişaf etdirilir. Qarşılıqlı inam və etibar ölkələrimiz arasındakı strateji müttəfiqliyi daha da möhkəmləndirir. Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının rolundan danışan Baş konsul bu əlaqələrin ilbəil genişləndirildiyini bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

2015-ci ilin oktyabr ayı ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Belə ki, "Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 sentyabr tarixli 83 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 20 oktyabr tarixli 71 nömrəli qərarı və "Naxçıvan Muxtar Respublikası ərazisində yeyinti məhsullarına verilən uyğunluq sertifikatının formasının və uyğunluq sertifikatının verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 20 oktyabr tarixli 72 nömrəli qərarı qəbul edilmişdir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestri vasitəsi ilə (***www.huquqiaktlar.nakhchivan.az***) tanış olmaq mümkündür.

## Smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılması davam etdirilir

Əhalinin etibarlı elektrik enerjisi və mavi yanacaqla təmin olunması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Bu ildən etibarən Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılıb. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, cari ilin iyul ayından Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılıb.

İlkin olaraq, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, "Təbriz", Atatürk, "İstiqlal" küçələrində, "Çənlibel", "Qoçüstü" məhəllələrində, Əliabad qəsəbəsində yerləşən təmir edilmiş ictimai yaşayış binaları yeni sayğaclarla təchiz olunub. Bu günədək 8270 sayğac quraşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması da davam etdirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən aldığımız məlumata görə, bu günədək Naxçıvan şəhərində 7680 ədəd sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilib.

## Torpaq sahələrinin elektron xəritələri hazırlanır

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən qəzetimizə verilən məlumata görə, torpaqların yenidən ölçülərək elektron uçota alınmasına başlanılmışdır. Bu işlərin yerinə yetirilməsi üçün Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin iş planına uyğun olaraq, mütəxəssislərdən ibarət işçi qrupları yaradılmışdır. Görülən işin keyfiyyətlə yerinə yetirilməsi üçün işçi qrupları yüksək texniki göstəricilərə malik, müasirtipli GPS və elektron taxometrlərlə təmin olunmuşlar.

Hazırda Babək rayonunun Babək qəsəbəsində həyətyanı torpaq sahələrinin uçota alınması davam etdirilir. Qəsəbədə qeydiyyata alınmış 864 həyətyanı torpaq sahəsindən 129-u plana alınaraq yekunlaşdırılmış və əldə olunan materiallar məlumat bazasına yığılmışdır. Bundan başqa, Babək rayonunun Qoşadizə kəndində 411 həyətyanı torpaq sahəsində planaalma işləri həyata keçirilmişdir. Hal-hazırda rayonun Sirab kəndində həyətlərin planaalma işlərinə başlanılmışdır. Bu kənddə cəmi 680 həyətyanı torpaq sahəsi mövcuddur. İndiyədək 268 həyətyanı torpaq sahəsi elektron taxometr və GPS alətləri vasitəsilə ölçülmüşdür.

Həyətyanı torpaq sahələrinin uçota alınması Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarında da aparılacaqdır.

**Xəbərlər şöbəsi**

## Kəngərli rayonunun Böyükdüz massivində yeni sənaye şəhərciyi salınır



*"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı Kəngərli rayonunun Böyükdüz massivində yeni sənaye şəhərciyi yaradır. Alçıpan örtüklər, gips, əhəng və məsaməli beton istehsal ediləcək yeni zavodların inşasına ötən il başlanılıb, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib. "Gəmiqaya İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin təcrübəli mütəxəssislərinin və müasir maşın-mexanizmlərin cəlb olunduğu obyektdə inşaat işləri vaxtında və keyfiyyətlə aparılıb. Hazırda beton, dəmir konstruksiya işləri başa çatmaq üzrədir.*

"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının əməkdaşı Kamal Kərimovun verdiyi məlumata görə, yeni layihələrin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Layihəyə uyğun olaraq, alçıpan örtüklər, gips, əhəng və məsaməli beton istehsal olunacaq zavodlara Çin Xalq Respublikasının bu sahədə qabaqcıl təcrübəyə malik şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb gətirilib. İdxal olunan avadanlıqlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılır.

Mütəxəssislər qrupunun rəhbəri Ding Sheng bizimlə söhbətində qeyd etdi ki, 2012-ci ildə tikilib istifadəyə verilən Naxçıvan Sement Zavodunda bizim şirkətdən alınıb gətirilmiş avadanlıqların quraşdırılmasında iştirak etmişik. İkinci dəfədir ki, Naxçıvanda həyata keçirilən yeni layihələrin icrasında mütəxəssis kimi iştirak edirik. Nümayəndəsi olduğum "Jiangsu Pengfei Group Co.LTD" şirkəti dünyada sement zavodları qurmaq sahəsində qabaqcıl təcrübəyə malik Almaniyanın "KHO", "Polysims", Danimarkanın "Flsm.dth" firmalarını soba, daşqırıcılar və üyüdücülərlə təmin edir.

Qeyd edək ki, müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılır. Cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulan zavodlarda ildə 2 milyon kvadratmetr alçıpan örtük, 40 min ton gips, 150 min kubmetr məsaməli beton və 36 min ton əhəng istehsal ediləcək ki, bu da daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, bu yerli inşaat materiallarının xarici bazarlara çıxarılmasına da imkan yaradacaq. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihələrin reallaşması ilə bu problem aradan qaldırılacaq.

Bu istehsal müəssisələri əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq, 200 yeni iş yeri yaradılacaq. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışacaq işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verəcək ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

**Kərəm HƏSƏNOV**




*Azərbaycan müstəqillik qazandıqdan və ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə milli dövlətçiliyin qurulması istiqamətində həyata keçirilən tədbirlər xarici işlər sistemini də əhatə etmişdir. Dahi şəxsiyyətin təməlini qoyduğu xarici siyasət strategiyası qonşu dövlətlər və dünya birliyi ilə xalqımızın milli maraqlarına söykənən, bərabərhüquqlu, qarşılıqlı və faydalı əməkdaşlıq prinsipləri əsasında münasibətlərin qurulmasını təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır.*

# Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ötən 10 ildə səmərəli fəaliyyət göstərmişdir

Ulu öndərin müəllifi olduğu xarici siyasət kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə ötən illər ərzində milli diplomatiya sahəsində ciddi və əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da tarixən diplomatik əlaqələr formalaşmış, bu münasibətlər ölkəmiz müstəqillik qazandıqdan sonra daha da möhkəmlənmişdir. X əsrdə Naxçıvan şahlığının, XII əsrdə Azərbaycan Atabəylər dövlətinin, XVIII əsrdə Naxçıvan xanlığının, 1918-ci ildə Araz-Türk Respublikasının paytaxtı olmuş, beş minillik şəhər mədəniyyətinə malik Naxçıvan Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasına və inkişafına mühüm töhfələr vermiş, bu qədim diyarda görkəmli diplomatlar nəsli yetişmişdir. Dövrünün görkəmli dövlət xadimlərindən olan Möminə xatın qüdrətli Azərbaycan Atabəylər dövlətinin Marağa və Rey hakimləri ilə münaqişələrini böyük təcrübə və müdrikliklə aradan qaldırmış, Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan Naxçıvan xanlığının xarici siyasətinə, bilavasitə, rəhbərlik etmiş, birinci Kalbalı xan isə on səkkizinci əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır. Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski ölkənin əsas hissəsindən ayrı düşmüş Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərmişdir. Həmçinin Naxçıvan İbrahim Əbilov və Rza Təhmasib kimi görkəmli diplomatlar yetirmiş, Behbud ağa Şahtaxtinski mahir diplomat bacarığı ilə Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanmasında, eləcə də Naxçıvanın muxtariyyət qazanmasında mühüm xidmətlər göstərmişdir. Ötən əsrin 20-ci illərində Azərbaycanın himayəsi altında muxtariyyət qazanmış Naxçıvanın Maku, Xoy və Təbrizdə konsulluqları, Bakı, Tiflis və İrəvanda nümayəndəlikləri yaradılmış, Rusiya Federasiyasının Qarsdakı konsulluğu yanında müvəkkilliyi təşkil olunmuş, səriştəli dövlət xadimləri səmərəli diplomatik fəaliyyətləri ilə muxtar respublikamızın xarici əlaqələrinin inkişafına mühüm töhfələr vermişlər.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının da xarici əlaqələrinin inkişafında yeni mərhələ başlanmışdır. Ümummilli lider Naxçıvanın qonşu dövlətlərlə münasibətlərdə iştirakına daim böyük əhəmiyyət vermiş, onun bilavasitə tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq məntəqəsi yaradılmışdır. Bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il oktyabrın 31-də imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi yaradılmış, idarənin əsasnaməsi qəbul olunmuş və fəaliyyəti təmin edilmişdir.

İdarə Azərbaycan Respublikasının vahid xarici siyasi xəttinin və dövlət protokolunun Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsini təmin etməklə yanaşı, Naxçıvana səfər edən xarici nümayəndə heyətlərinin dövlət hakimiyyəti orqanları ilə münasibətlərini əlaqələndirir. Bu gün muxtar respublikanın xarici dövlətlər və beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni məsələlərlə bağlı səmərəli əməkdaşlığı ölkəmizin beynəlxalq münasibətlərinin inkişafına mühüm töhfələr verir. İdarə öz fəaliyyətini Naxçıvan Muxtar Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələr, habelə hüquqi və fiziki şəxslərlə, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici dövlətlərin konsulluqları, beynəlxalq təşkilatların nümayəndəlikləri ilə qarşılıqlı şəkildə həyata keçirir.

Son illər Naxçıvanda beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi, nüfuzlu xarici nümayəndə heyətlərinin bu qədim diyara səfərləri muxtar respublikanın dünya miqyasında əhəmiyyətini xeyli artırmışdır. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, 2012-ci ildə Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, 2014-cü ildə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi muxtar respublikanın xarici siyasət müstəvisindəki əhəmiyyətinin mühüm göstəricilərindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Gürcüstanın Acarıstan Muxtar Respublikasına, İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan vilayətlərinə, Avstriyanın Ştiriya Əyalətinə rəsmi və işgüzar səfərləri Azərbaycan Respublikasının bu ölkələrlə əlaqələrinin inkişafına mühüm töhfələr vermişdir. Həmçinin güclü iqtisadi inkişaf xarici ölkələrin muxtar respublikaya marağının artmasına səbəb olmuşdur. Naxçıvan şəhəri ilə Belarusun Brest şəhəri arasında 2012-ci ildə "qardaşlaşmış şəhər" münasibətləri yaradılmış, Gürcüstanın Batumi, Bolqarıstanın Veliko-Trnovo, Çinin Çun-Çin və Malayziyanın Kota Kinabulu şəhərləri arasında isə bu münasibətlərə dair niyyət protokolları hazırlanmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikası özünün muxtar dövlət statusuna əsasən, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində və Avropa Birliyinin Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransında da uğurla təmsil olunur. Bu qurumlar vasitəsilə qitənin ayrı-ayrı regionları, muxtariyyətləri və federal subyektləri ilə birbaşa əlaqələr yaradan və səmərəli əməkdaşlıq edən Naxçıvan Muxtar Respublikası həm də Avropa siyasətinin formalaşması və həyata keçirilməsi prosesində yaxından iştirak edir. 2012-ci ildə Fransanın Strasburq şəhərində Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir.

Muxtar respublikada diplomatların səmərəli fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısının nəticəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin maddi-texniki bazası möhkəmləndirilmişdir. Kadr təminatı və əməkdaşların peşəkarlıq qabiliyyətlərinin yüksəldilməsi də daim diqqət mərkəzində saxlanılır. Diplomatlar "ADA" Universitetində və bir çox xarici ölkələrdə təşkil olunmuş kurslarda iştirak edir, təcrübə, bilik və bacarıqlarını artırırlar. Təkcə 2015-ci ildə əməkdaşlardan 10-u Azərbaycan Diplomatik Akademiyasının təlim kurslarında, 1-i Pakistan Diplomatik Akademiyasında, 1-i Çin Xalq Respublikasının Pekin Beynəlxalq İnstitutunda, 1-i isə Koreya Respublikasının Beynəlxalq Əməkdaşlıq Agentliyində keçirilən ixtisasartırma kurslarında iştirak etmişdir.

Yaradılan şəraitin nəticəsidir ki, bu gün idarənin əməkdaşları ölkəmizi və muxtar respublikanı xarici ölkələrdə layiqincə təmsil edirlər. Cari ildə idarənin 15 əməkdaşı Azərbaycanın xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinə ezam olunmuşdur. Onlar Azərbaycan Respublikasının Türkiyə, Bolqarıstan, Malayziya, Özbəkistan, Meksika, Səudiyyə Ərəbistanı və Hindistandakı səfirliklərində, eləcə də Təbriz, Qars və İstanbul şəhərlərindəki baş konsulluqlarında ölkəmizin maraqlarını layiqincə müdafiə edirlər. Həmçinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin Sədərək, Culfa və Şahtaxtıda, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanının sərhəd-nəzarət buraxılış məntəqələrində viza sektorları fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin müvafiq ixtisası Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinə hamiliyə verilmişdir. Bu da peşəkar kadrların yetişdirilməsi istiqamətində görülən işlərə mühüm töhfələr verir. Ona görə də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi sərəncamdan irəli gələn vəzifələrin icrasını diqqət mərkəzində saxlayır, bu sahədə ardıcıl tədbirlər görülür.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***"Hər bir ölkənin diplomatiyası o ölkənin qürur mənbəyidir. Milli dövlətçiliyi və dövlət sərhədləri olan ölkələr istər-istəməz beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilirlər. Bu mənada diplomatiya dövlətçiliklə birbaşa bağlıdır və ondan kənarda ölkələrarası münasibətlər mümkün deyil".*** *Bu fikirləri əldə rəhbər tutan idarənin kollektivi peşə hazırlıqlarını daim yüksəldəcək, bundan sonra da ölkəmizin maraqlarının qorunmasında yorulmadan fəaliyyət göstərəcəkdir.*

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti**

# Naxçıvan regionda həm də beynəlxalq səviyyəli elmi müzakirələrin aparıldığı bir məkan kimi diqqəti cəlb edir

## *"Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun iştirakçılarının ortaq qənaəti belədir*

*Oktyabrın 26-27-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə keçirilən "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu mühüm elmi nəticələrin əldə edilməsi ilə yadda qaldı. Qonşu ölkələrdən gələn elm xadimləri bu cür beynəlxalq tədbirlərin əhəmiyyətini vurğulayaraq Naxçıvan Muxtar Respublikasının regionda həm də beynəlxalq səviyyəli elmi müzakirələrin aparıldığı bir məkan kimi diqqəti cəlb etdiyini bildirdilər.*

***Türkiyənin İğdır Universitetinin professoru Turqut Öcal*** "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumunun əhəmiyyətindən danışaraq dedi:



– Məlum olduğu kimi, "Kitabi-Dədə Qorqud" dastanları tariximizin, qədim dövrlərdən bəri mövcud olan adət-ənənələrimizin, folklorumuzun, ədəbiyyatımızın və digər mühüm sahələrin öyrənilməsi baxımından bənzəri olmayan möhtəşəm abidədir. Mən məmnuniyyətlə bildirmək istəyirəm ki, həmin dastanlarda qeyd olunan hadisələrin məhz bizim coğrafiyamızda, xüsusən də Naxçıvan Muxtar Respublikası ərazisində cərəyan etməsi bu gün artıq tarixi bir reallıq kimi qəbul olunur. Bu mənada, "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun yüksək səviyyədə keçirilməsi bir sıra elmi faktların aşkara çıxarılmasında, mühüm nəticələr əldə edilməsində önəmli rol oynadı.

Bundan başqa, belə hesab edirəm ki, simpoziuma bizim kimi xaricdən dəvət olunan elm xadimləri ilə yanaşı, Azərbaycanın nüfuzlu alim və tədqiqatçıları ilə birgə müzakirələr aparması beynəlxalq tədbirin səmərəli keçməsinə imkan yaratdı. Mən çox sevinirəm ki, "Kitabi-Dədə Qorqud" irsinin araşdırılması, qədim türk yurdu olan Naxçıvanla bağlılığı və yaşadılması istiqamətində muxtar respublikada çox mühüm işlər görülüb. "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun keçirilməsi bu istiqamətdə aparılan düzgün elmi siyasətin davamıdır.

Tədbir barədə son olaraq bunu deyə bilərəm ki, simpozium çox uğurlu keçdi və belə möhtəşəm tədbirlər Naxçıvanın şöhrətini daha da artırır. Simpozium çərçivəsində Naxçıvanda olmaq isə mənim üçün ikiqat əlamətdardır. Çünki bu qədim diyarı sevən bir insan kimi buradakı möhtəşəm quruculuq-abadlıq işlərini, sürətli inkişafı bir daha görmək imkanım oldu.

Naxçıvan Muxtar Respublikasının zəngin təbiəti, təmiz havası, saf suyu, gözəl insanları var. Mən bir daha insan amilinə diqqət çəkərək demək istəyirəm ki, Naxçıvanın mehriban, alicənab və yüksək intellektual potensiala malik insanları bu yurdun ən böyük sərvətidir. Məhz belə də olmalıdır. Çünki bu yurd Türk dünyasının böyük oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin vətənidir.

***İbad Məmizadə Ağdaşlı – İran İslam Respublikasının Təbriz Universitetinin müəllimi:***



– Naxçıvan dahilər yurdu olub, çox böyük şəxsiyyətlər yetişdirib. Təbii ki, həmin dahilərin, elm, siyasət xadimlərinin fövqündə görkəmli dövlət xadimi Heydər Əliyev dayanır. Böyük şəxsiyyət Azərbaycan-İran əlaqələrinin inkişafına əvəzsiz töhfələr verib. Heydər Əliyev Muzeyi ilə tanış olarkən orada saxlanılan tarixi sənədlərə baxanda bunu bir daha xatırladıq və görkəmli dövlət xadimi Heydər Əliyevi hörmətlə, ehtiramla yad etdik.

Bu gün Naxçıvan Muxtar Respublikasında dahi şəxsiyyət Heydər Əliyevin uğurlu siyasi xətti böyük nailiyyətlə davam etdirilir. Elmə, təhsilə göstərilən diqqət də bunu göstərir. "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanları barədə elmi müzakirələrin aparılması həm də Heydər Əliyev yolunun elmi şəkildə davam etdirilməsidir. Çünki mən də bir tədqiqatçı kimi yaxşı bilirəm ki, hələ keçmiş sovet dönəmində dahi şəxsiyyət "Kitabi-Dədə Qorqud" dastanlarının araşdırılması, ortaya çıxarılması üçün böyük işlər görüb. "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumun keçirilməsi muxtar respublikada mənəvi dəyərlərin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter aldığını göstərir.

Simpoziumda elmi şəkildə əsaslandırılmış çıxışlarda da qeyd olunduğu kimi, "Kitabi-Dədə Qorqud" dastanlarında nəql olunan hadisələr məhz Naxçıvanda cərəyan edib. Bildiyiniz kimi, dastanda bir sıra boylarda adı çəkilən Qaraçuq, Əlincə qalası, Dərəşam, Şərur kimi coğrafi adlar Naxçıvan ərazisindədir.

Naxçıvan elm və mədəniyyət baxımından çox böyük inkişaf yolu keçib. Biz səfər müddətində bir daha bunun şahidi olduq. Tədbir çərçivəsində Naxçıvanın tarixi yerlərini gəzdik. Çox möhtəşəm idi. Dinamik sürətlə inkişaf edən muxtar respublikada abadlıq və quruculuq işləri bütün sahələri əhatə edib. Bunu hər addımda görmək mümkündür.

**Rauf ƏLİYEV**



Kənd Təsərrüfatı Nazirliyinin inzibati binası

*1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür*

# Muxtar respublikada iqtisadiyyatın aparıcı sahəsi olan kənd təsərrüfatı inkişaf etdirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***

Ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan qısa müddətdə kənd təsərrüfatının inkişaf göstəricilərinə görə ittifaq respublikaları sırasında qabaqcıl yerlərdən birini tutmuşdur. Bu dövrdə ölkəmizdə sənayenin inkişafı ilə yanaşı, aqrar sahədə də kompleks tədbirlər görülmüş, yeni su anbarları tikilmiş, kanallar çəkilmiş, kənd təsərrüfatı emalı müəssisələri fəaliyyətə başlamışdır. Nəticədə, əkinçilik, heyvandarlıq və bağçılıq inkişaf etdirilmiş, bol məhsul istehsalının əsası qoyulmuşdur. Müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur tamamilə dağıdılmışdır. Lakin həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli lider kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu aqrar islahatlar həyata keçirilmiş, qanunvericilik bazasının yaradılmasına başlanılmış, "Aqrar islahatların əsasları haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları, Torpaq, Meşə və Su məcəllələri qəbul edilmişdir.



Ulu öndərin müəyyənləşdirdiyi aqrar islahatlar bu gün ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev aqrar-sənaye kompleksinin inkişafını diqqət mərkəzində saxlayır, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində konkret tədbirlər görülür, dövlət proqramları qəbul olunur. Ölkə başçısının 2015-ci il 12 yanvar tarixli Sərəncamına əsasən, 2015-ci ilin ölkəmizdə "Kənd təsərrüfatı ili" elan edilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Bu gün muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Aqrar sahədə aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olmuşdur. 2000-ci ildə muxtar respublikada 205 kəndi, 132 kolxoz, sovxoz və birlikləri əhatə etməklə aparılan torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə və ya 241 min 46 nəfərə torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir ölkənin müstəqil inkişafını şərtləndirən əsas amillərdən biri də ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün ölkəmizdə qəbul olunmuş dövlət proqramlarının icrası və həyata keçirilən digər tədbirlər kənd təsərrüfatının ardıcıl inkişafını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası da Azərbaycanın tərkib hissəsi kimi yaradılan bu şəraitdən bəhrələnir, muxtar respublika aqrar region kimi inkişaf edir".***



Son illər muxtar respublikada kənd təsərrüfatı sahəsinin inkişafı diqqət mərkəzində saxlanılmış, istehsalın artırılmasına və intensiv amillər hesabına məhsuldarlığın çoxaldılmasına hesablanmış dövlət proqramları qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada aqrar sahənin davamlı inkişafını təmin etmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarını stimullaşdırmaq məqsədilə aqrar sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması bu sahənin inkişafına xüsusi təkan vermişdir. Belə ki, əkin sahələrinin hər hektarının becərilməsi üçün torpaq mülkiyyətçilərinə istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtgü materiallarına görə verilən yardımların 25 faiz artırılması kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara göstərilən mühüm dövlət dəstəyidir. Hazırda muxtar respublikada kənd təsərrüfatının bitkiçilik sahəsi müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla inkişaf etdirilir, məhsuldarlıq ilbəil artırılır. Bunun nəticəsidir ki, 1995-ci illə müqayisədə 2015-ci ilin məhsulu üçün taxıl əkini sahəsi 1,8 dəfə, məhsul istehsalı isə 4,5 dəfə artmışdır. Belə ki, bu il muxtar respublika ərazisində 36 min 237 hektar sahədə taxıl əkilmiş, sahələrdən 106 min 282 ton məhsul toplanmışdır.





Aqrar sahə ilə məşğul olanlara güzəştli kreditlərin verilməsi də bu sahə üzrə sahibkarlığın inkişafına və bol məhsul istehsalına səbəb olmuşdur. Hazırda muxtar respublikada kənd təsərrüfatında özəl bölmənin payı 98,4 faizə çatır. Son illər bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarının emalı müəssisələri fəaliyyətə başlamış, kəndlərdə kiçik fermer təsərrüfatları yaradılmış, yeni soyuducu anbarlar, istixana kompleksləri istifadəyə verilmişdir. Ötən dövrdə ümumi tutumu 12 min 730 ton olan 22 soyuducu anbar, eləcə də 27 min tonluq uzunmüddətli və 43,4 min tonluq qısamüddətli taxıl anbarları istifadəyə verilmişdir. Əhalinin ilboyu tərəvəz məhsulları ilə təmin edilməsi üçün yaradılmış istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetrə çatdırılmışdır.

Toxumçuluq kənd təsərrüfatının vacib sahələrindən biridir. Hazırda muxtar respublikada 5 toxumçuluq və 1 tingçilik təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda yerli və məhsuldar toxum sortları bərpa olunaraq torpaq mülkiyyətçilərinə verilir.

Muxtar respublikada əkinçiliyin inkişafı istiqamətində görülən işlər sırasında suvarma sistemlərinin təkmilləşdirilməsi mühüm yer tutur. Son illər yeni nasos stansiyalarının istifadəyə verilməsi, su anbarlarında yenidənqurma işlərinin aparılması, kanalların çəkilməsi torpaq sahələrinin su təminatını xeyli yaxşılaşdırmış, əkin sahələri genişləndirilmişdir. Belə ki, 2014-cü ildə Araz çayından qidalanan "Azərbaycan" nasos stansiyasının 16,6 kilometr uzunluğundakı təzyiqli boru xətti yenilənmiş, mövcud supaylayıcı hovuzda təmir-bərpa işləri aparılmış, 3 kilometr özüaxımlı boru xətti çəkilmişdir. Nəticədə, Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 2 min hektardan artıq torpaq sahəsi dayanıqlı suvarma suyu ilə təmin edilmişdir. Həmçinin Uzunoba Su Anbarının yenidən qurulması suvarma təchizatını daha da yaxşılaşdırmış, 40 kilometr uzunluğunda çəkilən boru xətti vasitəsilə Kəngərli rayonunda 4 min hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Bundan başqa, Sədərək rayonunda tikilmiş nasos stansiyası hesabına 1500 hektara yaxın torpaq sahəsi suvarma suyu ilə təmin olunmuşdur. Bu sahədə işlər "Kənd təsərrüfatı ili"ndə də davam etdirilir. Hazırda Heydər Əliyev Su Anbarının sol sahil kanalının əhatə etdiyi 2 min hektar torpaq sahəsində yeraltı suvarma şəbəkəsinin tikintisi aparılır.

Muxtar respublikada kənd təsərrüfatının mühüm və gəlirli sahələrindən biri olan heyvandarlığın inkişafına da daim diqqət yetirilir. 2002-ci ildən maldarlıqda süni mayalandırma üsulunun tətbiqinə başlanması mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və baş sayının artırılmasına əsaslı zəmin yaratmışdır. Hazırda muxtar respublikada 112 min 598 baş iribuynuzlu malqara, 689 min başdan artıq xırdabuynuzlu heyvan saxlanılır. Heyvandarlığın inkişafı ilə yanaşı, ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması işi də diqqət mərkəzindədir. Dövlət Baytarlıq Xidməti tərəfindən mütəmadi olaraq mal-qara və quşlar arasında müxtəlif xəstəliklərə qarşı profilaktiki peyvəndləmə və dezinfeksiya işləri aparılır, epizootiya əleyhinə və bioloji təhlükəsizliyin qorunması məqsədilə ardıcıl tədbirlər görülür.

Bağçılıq muxtar respublikada qədim təsərrüfat sahələrindəndir. Naxçıvanda yetişdirilən meyvələr öz dadı-tamı ilə seçilir. Bu səbəbdən muxtar respublikada meyvə istehsalının artırılması sahəsində işlər davam etdirilir, yeni bağçılıq təsərrüfatları yaradılır, ənənəvi meyvə sortları bərpa olunur. Hər il muxtar respublikada tonlarla meyvə yetişdirilir. Bu işdə muxtar respublikada keçirilən iməciliklərin də mühüm rolu vardır. Belə ki, iməciliklər zamanı yeni yaşıllıq zolaqları ilə yanaşı, həm də yüz hektarlarla sahədə meyvə tingləri əkilir. Bir faktı qeyd edək ki, son illər muxtar respublika ərazisində 4 min hektardan artıq meyvə bağı salınmışdır.

Müasir kənd təsərrüfatı texnikalarından istifadə olunması işin səmərəliliyinin artırılmasında mühüm şərtdir. Ona görə də muxtar respublikada nümunəvi aqroservis xidməti təşkil olunur, sahibkarlar kənd təsərrüfatı texnikaları və aqreqatları ilə təmin edilirlər. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1684 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. Təkcə 2015-ci ilin yanvar-sentyabr ayları ərzində 168 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası güzəştli şərtlərlə sahibkarlara satılmışdır.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaradılmışdır. "Kənd təsərrüfatı ili" olan 2015-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 297 milyon 854 min manat həcmində kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 9,1 faiz çoxdur. Bol məhsul istehsalı daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac potensialı yaratmışdır. Belə ki, cari ilin ötən dövrü ərzində muxtar respublikadan ümumi dəyəri 82 milyon ABŞ dollarından artıq olan kənd təsərrüfatı məhsulu ixrac edilmişdir.

İstehsal prosesində düzgün aqrotexniki qaydalara əməl etmək kənd təsərrüfatının inkişafında əsas məsələdir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollektivi bu məsələni daim diqqət mərkəzində saxlayır, sahibkarlar və torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri aparılır. Bu il 57 mövzu üzrə tövsiyə xarakterli bukletlər hazırlanaraq torpaq mülkiyyətçilərinə və sahibkarlara paylanılmış, muxtar respublikanın teleradiolarında maarifləndirici verilişlər hazırlanmış, qəzetlərdə məqalələr dərc edilmişdir.

***Peşə bayramlarını qeyd edən kənd təsərrüfatı işçiləri bundan sonra da muxtar respublikada qarşıya qoyulan vəzifələrin icrasını diqqət mərkəzində saxlayacaq, aqrar sahənin inkişafını təmin edərək bol məhsul istehsalına nail olacaqlar.***

*Naxçıvan Muxtar Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti*

# Seçki marafonu

## 1 noyabr 2015-ci il Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

Parlament seçkiləri - 2015

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

**Seçki məntəqəsinin açılması**

Seçki günü səhər saat 7[00]-dən gec olmayaraq məntəqə seçki komissiyasının üzvləri seçki məntəqəsini səsvermə prosesinə hazırlamaq üçün toplaşırlar. Məntəqə seçki komissiyasının bütün üzvləri işə hazır olmalıdırlar. Seçki məntəqəsi açılmazdan əvvəl məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında aparılan vəzifə bölgüsünü təsdiqləyir və onlar öz iş yerlərini tuturlar. Məntəqə seçki komissiyası üzvlərinin vəzifə bölgüsü sədrin razılığı ilə komissiya üzvlərinin fikirləri nəzərə alınmaqla dəyişdirilə bilər. Seçki məntəqəsinin açılışına hazırlıq üçün sədr və ya onu əvəz edən komissiya üzvü aşağıdakı tapşırıqları verir:

**Seçki materiallarının və avadanlıqlarının hazırlanması**

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqəsində işin təşkilinə cavabdehdirlər. Səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı və səsvermə kabinələrində yerləşdirilməli, məntəqə seçki komissiyasının möhürü, gözəgörünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampa, batareyalar, səsvermə üçün zəruri olan material və avadanlıqlar hazırlanmalıdır.

**Səsverməyə dair təlimat və məlumat plakatları**

Məntəqə seçki komissiyasının sədri səsvermə otağında asılmış seçki bülleteninin doldurulmasına dair izahın səsvermə kabinəsində də yerləşdirilməsini təmin etməlidir. O, səsvermə saatlarında həmin plakatların yerində olmasını müntəzəm surətdə yoxlamalıdır.

**Təşviqat materiallarının seçki məntəqəsindən çıxarılması**

Məntəqə seçki komissiyasının üzvləri səsverməyə 24 saat qalmış seçicilərin maariflənidirilməsi üçün nəzərdə tutulan məlumatlar istisna olmaqla, bütün təşviqat materiallarını səsvermə otağının daxilindən və xaricindən çıxarmalıdırlar.

**Akkreditasiyanın yoxlanılması**

Məntəqə seçki komissiyasının katibi seçki məntəqəsinə gəlmiş bütün müşahidəçilərin akkreditasiyasını və qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin və KİV nümayəndələrinin lövhəciklərini yoxlamalıdır.

**Dairə seçki komissiyasından alınmış seçki bülletenlərinin sayılması və qeydiyyatı**

Səsvermə başlanmazdan əvvəl məntəqə seçki komissiyasının üzvləri buna hüququ olan şəxslərin müşahidəsi ilə seçki bülletenlərini sayır, onların hər birinin məntəqə seçki komissiyası tərəfindən əvvəlcədən möhürləndiyini yoxlayır (bülletenlər Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99.6-cı, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.6-cı maddəsinə uyğun olaraq dairə seçki komissiyasından alındıqdan sonra onların üz tərəfinin yuxarı sağ küncü məntəqə seçki komissiyasının möhürü ilə möhürlənir) və bu barədə akt tərtib edirlər. Seçki bülletenlərinin sayı dəqiqləşdirildikdən sonra məntəqə seçki komissiyasının sədri onların sayını elan edir. Bu məlumat səsvermənin nəticələri haqqında protokolun qaralama nüsxəsinin 3-cü bəndinə daxil edilir.

**Seçki qutularının hazırlanması**

Səhər saat 7[50]-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərir, onları bağlayır, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə bağlayır. Sədr həmin kilidlərin fərdi nömrələrini elan edir. Bu nömrələr məntəqə seçki komissiyasının müvafiq aktında qeyd olunur. Səsvermə günü seçki qutuları müşahidəçilərin və məntəqə seçki komissiyası üzvlərinin maneəsiz daim müşahidə edə biləcəyi yerdə yerləşdirilməlidir.

**Mürəkkəb və ultrabənövşəyi lampaların yoxlanılması**

Mürəkkəb və ultrabənövşəyi lampalar seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılır. Yoxlama səsvermə otağında, məntəqə seçki komissiyası üzvlərinin birinin çeçələ barmağında aparılır və mürəkkəb balonları səsvermə otağında, masanın üstündə, hamının sərbəst görə biləcəyi yerdə saxlanılır.

**Səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələrinin asılması**

Səsvermə otağında səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə səsvermənin yekununa dair böyüdülmüş protokol nümunələri asılmalıdır.

**Səsvermənin başlanmasının elan edilməsi**

Səhər saat 8[00]-də məntəqə seçki komissiyasının sədri səsvermənin başlanmasını ucadan elan edir.

Səsvermə günü seçki məntəqəsində kimlər ola bilər:

- məntəqə seçki komissiyasının üzvləri;
- Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının üzvləri;
- qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, akkreditasiyadan keçmiş beynəlxalq və yerli müşahidəçilər;
- KİV nümayəndələri;
- seçicilər (o cümlədən səsvermənin həyata keçirilməsi zamanı yardıma ehtiyacı olan seçicilərə kömək edən şəxslər).

**Zəruri hallarda aşağıdakı şəxslər də ola bilərlər:**

- səsvermə hüququnu həyata keçirən zaman və ya məntəqə seçki komissiyasının sədrinin dəvəti ilə yalnız ictimai asayişi bərpa etmək üçün xidməti geyim formasında olan polis işçiləri;
- müvafiq mütəxəssislər (məntəqə seçki komissiyası sədrinin dəvəti ilə yalnız texniki problemləri həll etmək üçün);
- zəruri yardıma ehtiyac olan hallarda kömək üçün dəvət edilən mütəxəssislər (təcili tibbi yardım, yanğınsöndürmə və sair üzrə mütəxəssislər).

Onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər.

**Səsvermə prosesi**

Seçici səs vermək üçün şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən müvafiq sənədi təqdim etməlidir.

**Seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan məntəqə seçki komissiyasının üzvü:**

- seçki məntəqəsinə gələn hər bir seçicini səsvermə otağının girişində salamlayır;
- seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədini yoxlayır;
- ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və yəqin edir ki, seçici səs verməyib. Ultrabənövşəyi işıq seçicinin sol əlinin baş barmağı boyunca salınmalıdır;
- əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, məntəqə seçki komissiyasının üzvü ondan dərhal məntəqəni tərk etməsini tələb edir və seçicinin bu tələbi yerinə yetirməsinə əmin olur;
- hər bir seçicidən səsvermə prosesinə aid suali olub-olmamasını soruşur;
- barmağında mürəkkəb olmayan seçiciyə məlumat lövhəsinə və sonra bülleten verən və seçicinin barmağını mürəkkəblə işarələyən məntəqə seçki komissiyasının üzvünə yaxınlaşmağı tövsiyə edir.

**Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini təqdim etməlidir:**

1. Azərbaycan Respublikasının vətəndaşları üçün:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***müvəqqəti şəxsiyyət vəsiqəsi.***

2. Qaçqın və məcburi köçkün vətəndaşlar üçün:

**- 1-ci bənddə göstərilən şəxsiyyətlərini təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.**

3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular üçün:

- ***zabitin şəxsi vəsiqəsi;***
- ***hərbi bilet.***

4. Barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər üçün:

**- Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.**

5. Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəza çəkən məhkumlar üçün:

**- Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.**

**Yadda saxla!**
**Seçki prosesində yuxarıda göstərilən sənədlərdən başqa, digər sənədlərdən istifadə olunması yolverilməzdir.**

**Seçicinin barmağını mürəkkəblə işarələyən və bülleten verən məntəqə seçki komissiyasının üzvü:**

- seçicinin adını və soyadını soruşur və şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməyi ondan xahiş edir;
- seçicinin adını seçicilər siyahısında tapır;
- təqdim olunmuş şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;
- seçiciyə sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsini təklif edir;

**Yadda saxla!**
**Barmağının mürəkkəblə işarələnməsinə etiraz edən seçiciyə seçki bülleteninin verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır.**

- seçici razılaşarsa, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsini gözəgörünməyən mürəkkəblə işarələyir və işarələndiyini yəqin edir. O, seçicini təlimatlandırır ki, mürəkkəb quruyanadək barmağına toxunmasın;
- seçiciyə möhürlənmiş seçki bülleteni verir. Seçki bülletenini seçiciyə verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;
- adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməsini xahiş edir;
- seçicini boş səsvermə kabinəsinə keçib seçki bülletenində istədiyi namizədin soyadından sağdakı kvadratda işarə etdikdən sonra bülleteni qatlaması və seçki qutusuna salaraq seçki məntəqəsini tərk etməsi barədə təlimatlandırır.

**Yadda saxla!**
**Hər seçici seçicilər siyahısında imza edərək yalnız bir seçki bülleteni alır və onda işarə qoyur. Seçicilər seçki bülleteninə işarəni səsvermə kabinəsində gizli şəkildə qoymalıdırlar. Səsvermə kabinəsində seçici səs verərkən digər seçicinin kabinəyə daxil olmasına imkan verilməməlidir!**

**Məntəqə seçki komissiyasının seçki qutusunun mühafizəsi üçün cavabdeh üzvü:**

- o, seçicinin seçki bülletenini qatlayaraq seçki qutusuna salmasına əmin olur;
- səs vermiş seçicidən seçki məntəqəsini tərk etməsini xahiş edir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

# Tanınmış aktyorla görüş

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynovla görüş keçirilib. Görüşdə ali təhsil ocağının İncəsənət fakültəsində təhsil alan tələbələr iştirak ediblər.*

Universitetin İncəsənət fakültəsinin dekanı, Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərov Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində 40 ildən artıq zəngin sənət yolu keçən, böyük tamaşaçı sevgisi qazanan Azərbaycan Respublikasının Əməkdar artisti Xəlil Hüseynovun İncəsənət fakültəsində, xüsusilə də Aktyorluq sənəti ixtisasında təhsil alan tələbələrlə görüşünü yüksək dəyərləndirib. Natiq aktyor olmaq üçün ilk addımlarını atan gənclərin tanınmış incəsənət adamları ilə görüşünün onların gələcək səhnə həyatına böyük fayda verəcəyini vurğulayıb.

Görüşdə çıxış edən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev Xəlil Hüseynovun həyatı və yaradıcılığı haqqında geniş məlumat verib. Vurğulanıb ki, Naxçıvan teatr sənətinə dəyərli töhfələr vermiş Xəlil Hüseynovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Aktyor 2000-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adlarına layiq görülüb. Xəlil Hüseynov 2005-ci ildə Prezident mükafatçısı olub, 2008-ci ildən isə Prezident təqaüdçüsüdür.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev Xəlil Hüseynovun səhnədə yaratdığı obrazlar haqqında danışıb. O bildirib ki, istedadlı aktyor Nazim Hikmətin "Qəribə adam" pyesində İsmayıl, Cəfər Cabbarlının "Aydın" əsərində Balaxan, Anarın "Sizi deyib gəlmişəm" pyesində Məmmədhəsən, Nəriman Həsənzadənin "Atabəylər" pyesində Məmar Əcəmi, İslam Səfərlinin "Göz həkimi" pyesində Şahbazov və başqa çoxsaylı obrazlar yaradıb.

Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü Xəlil Hüseynov yeni aktyor məktəbinin inkişaf etdirilməsi və peşəkarlıq səviyyəsinin artırılması üçün gənc aktyorlara tövsiyələr verib, teatr sənətimizin inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini bildirib.

**Mina QASIMOVA**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 814